**AZƏRBAYCAN RESPUBLİKASI**
# XƏTAİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISI

**Bakı şəh., Xocalı prospekti, 41 ☎: 490-08-51**

№ 241

# SƏRƏNCAMDAN ÇIXARIŞ

"20" 11 2019-il

**"23 dekabr Bələdiyyə seçkiləri ilə əlaqədar rayon ərazisində ictimayətlə görüş yerlərinin müəyyən edilməsi haqqında"**

13 noyabr 1998-ci ildə qəbul edilmiş "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığını təmin edir.

Həmin Qanunun 10-cu maddəsində nəzərdə tutulmiş "müvafiq İcra Hakimiyyəti orqanları"nın səlahiyyətlərini müvafiq rayon və şəhər İcra Hakimiyyətləri həyata keçirirlər.

Məlum olduğu kimi 23 dekabr 2019-cu il tarixdə Azərbaycan Respublikasında Bələdiyyə seçkiləri keçiriləcək. Bu məqsədlə rayon ərazisində namizədlərin və seçicilərin sərbəst toplaşmaq hüququnu təmin etmək məqsədilə görüşlərin keçirilməsi üçün açıq və qapalı yerlər ayrılması zərurəti yaranmışdır.

Qeyd olunanları nəzərə alaraq, eyni zamanda "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunla nəzərdə tutulmuş tədbirlərin rayon ərazisində yüksək səviyədə keçirilməsinin təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. "Sərbəst toplaşmaq azadlığı haqqında"Azərbaycan Respublikasının Qanununa əsasən rayonda seçicilər və ictimaiyyət nümayəndələri ilə görüşlər keçirilməsi aşağıda göstərilən ünvanlar nəzərdə tutulsun:

**a)** Açıq yer:

- Zığ yolu ilə R.Quliyev küçələrinin kəsişməsinin sağ tərəfində "Nargilə" dairəsinin yaxınlığındakı ərazi;
- Əhmədli qəsəbə nümayəndəliyinin qarşısı;

**b)** Qapalı yer:

- "Bakı" kinoteatrı;
- V.Məmmədov adına mədəniyyət evi

2. Toplantıların keçirilməsi zamanı ictimai asayişin qorunması və təhlükəsizliyin təmin olunması rayon Polis İdarəsinə(İ.Məmmədov) həvalə edilsin.
3. Toplantının təşkilatçılarına tapşırılsın ki, hər hansı neqativ hadisənin baş verməməsi üçün mövcud qanunvericiliyin tələblərinə riayət etsinlər.
4. Sərəncamın surəti rayon Polis İdarəsinə, Dairə Seçki Komissiyalarına, siyasi partiyalar və ictimai birliklərə və rayon İcra Hakimiyyətinin şöbələrinə göndərilsin.
5. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Azərbaycan Respublikası Bakı şəhər Xətai rayon İcra Hakimiyyəti

**R.Quluyev**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdir əvəzi** **K.Abbasova**